"Şamaxı Open - 2026"

Beynəlxalq Şahmat Festivalının

Ə S A S N A M Ə S İ

1. Məqsəd və vəzifələr

1.1. Azərbaycanda şahmatın təbliği və inkişafı;

1.2. Şahmatçıların oyun təcrübəsinin və beynəlxalq reytinqinin artırılması, beynəlxalq normaların yerinə yetirilməsi;

1.3. Azərbaycan uşaq şahmatının inkişafı;

2. Təşkilatçılar

2.1. Azərbaycan Şahmat Federasiyası

2.2. Vüqar Həşimov Şahmat Fondu

3. Keçirilmə yeri və tarixi

3.1. Festival Şamaxı şəhərində "Tədris mərkəzi"-ndə təşkil olunacaq.

3.2. Festival 15 iyul (gəlmə günü) - 22 iyul (getmə günü) 2026-cı il tarixlərində keçiriləcək.

4. Keçirilmə qaydaları

4.1. Festival 3 qrup üzrə təşkil olunur: A (Klassik), B (Rapid), C (Blits).

4.2. Yarışlar FIDE-nin oyun qaydaları əsasında keçirilir.

4.3. FIDE ID-si olan şahmatçılar bütün qruplarda iştirak edə bilərlər.

4.4. A və C qruplarında yarış 9 tur, B qrupunda isə 7 tur İsveçrə sistemi üzrə keçirilir.

4.5. A qrupunda oyuna nəzarət vaxtı 13 iyul tarixindən dəyişdirilib: 45 dəqiqə + 30 saniyə nəzarət vaxtı ləğv edilib. Yeni nəzarət vaxtı oyunun sonunadək 60 dəqiqə, birinci gedişdən etibarən hər gedişə 30 saniyə əlavə olunmaqla (60 dəqiqə+30 saniyə/hər gedişə) nəzərdə tutulur.

4.6. B - (Rapid) qrupunda oyuna nəzarət vaxtı oyunun sonunadək 10 dəqiqə, birinci gedişdən etibarən hər gedişə 3 saniyə əlavə olunmaqla (10 dəqiqə+3 saniyə/hər gedişə) nəzərdə tutulur.

4.7. C - (Blits) qrupunda oyuna nəzarət vaxtı oyunun sonunadək 3 dəqiqə, birinci gedişdən etibarən hər gedişə 2 saniyə əlavə olunmaqla (3 dəqiqə+2 saniyə/hər gedişə) nəzərdə tutulur.

4.8. A qrupunda tura gecikmə vaxtı 15 dəqiqədir.

4.9. Xallar bərabər olarsa qalib əmsalları aşağıdakı ardıcıllığı ilə müəyyən edilir:

A, B və C qrupları üzrə
1. Şəxsi görüşün nəticəsi
2. Qısaldılmış Buhqolts əmsalı (-1)
3. Buhqolts əmsalı
4. Qələbələrin sayı

4.10. Yarışların püşkatması “Swiss-Manager” proqramı vasitəsi ilə aparılacaq. Nəticələr və püşkatmalar gündəlik olaraq yarışın internet səhifəsində (shamakhiopen.chess.az) və www.chess-results.com saytında dərc olunacaq.

4.11. Yarışların cədvəli aşağıdakı kimidir:

Tarix	Tədbir	Saat
15 iyul 2026	Gəlmə günü	14:00-dan etibarən
16 iyul 2026	Açılış mərasimi	14:00
	1-ci tur	15:00
17 iyul 2026	2-ci tur	11:00
	3-cü tur	16:00
18 iyul 2026	4-cü tur	11:00
	Rapid	16:00
19 iyul 2026	5-ci tur	11:00
	Blits	16:00
20 iyul 2026	6-cı tur	11:00
	7-ci tur	16:00
21 iyul 2026	8-ci tur	11:00
	9-cu tur	16:00
	Bağlanış mərasimi	19:00
22 iyul 2026	Getmə günü	12:00-dək

5. Qeydiyyat və üzvlük haqqı

5.1. Qeydiyyat yarış elan olduğu gündən etibarən 15 iyul 2026-cı il tarixinədək aparılır.

5.2. Qeydiyyat yalnız onlayn qaydada yarışın internet səhifəsindən (shamakhiopen.chess.az) aparılır.

5.3. Yarışda iştirak üçün üzvlük haqqı 100 AZN-dir
- 10 iyuladək ödəniş edənlər üçün – 60 AZN-dir
- 14 iyuladək ödəniş edənlər üçün – 80 AZN-dir

5.4. B qrup (Rapid) üzrə üzvlük haqqı – 20 AZN-dir.

5.5. C qrupu (Blits) üzrə üzvlük haqqı – 20 AZN-dir.

5.6. A qrupunda üzvlük haqqından azaddırlar:

a) Beynəlxalq Qrossmeysterlər (kişilər və qadınlar)
b) Beynəlxalq Ustalar (kişilər və qadınlar)
c) Beynəlxalq reytinqi 2200-dən yüksək olan qadın şahmatçılar
d) Beynəlxalq reytinqi 2400-dən yüksək şahmatçılar

6. Mükafatlandırma

6.1. Ümumi mükafat fondu **23.300** AZN təşkil edir.

6.2. Mükafat fondu Azərbaycan Şahmat Federasiyası tərəfindən təmin edilir.

6.3. A qrupu üzrə **21.000** AZN, B qrupu üzrə **1150** AZN, C qrupu üzrə **1150** AZN pul mükafatı verilir.

6.4. Mükafatlar aşağıdakı cədvəllərə əsasən müəyyənləşdirilir:

Yer	A Qrupu		
1	5.000 AZN	Qadınlar arasında	1-ci yer - 500 AZN 2-ci yer - 300 AZN 3-cü yer - 200 AZN
2	3.500 AZN	Reytinqsizlər - 1500	1-ci yer - 300 AZN 2-ci yer - 200 AZN 3-cü yer - 100 AZN
3	2.500 AZN	1501 - 1600	1-ci yer - 300 AZN 2-ci yer - 200 AZN 3-cü yer - 100 AZN
4	1.500 AZN	1601 - 1700	1-ci yer - 300 AZN 2-ci yer - 200 AZN 3-cü yer - 100 AZN
5	1000 AZN	1701 - 1800	1-ci yer - 300 AZN 2-ci yer - 200 AZN 3-cü yer - 100 AZN
6	900 AZN	1801 - 1900	1-ci yer - 300 AZN 2-ci yer - 200 AZN 3-cü yer - 100 AZN
7	800 AZN		
8	700 AZN		
9	600 AZN		
10	500 AZN		

Rapid	Blitz
I yer – 300 AZN	I yer – 300 AZN
II yer – 200 AZN	II yer – 200 AZN
III yer – 150 AZN	III yer – 150 AZN
IV yer – 100 AZN	IV yer – 100 AZN
V yer – 100 AZN	V yer – 100 AZN
ELO 1401-1600 – 100 AZN	ELO 1401-1600 – 100 AZN
ELO 1601-1800 – 100 AZN	ELO 1601-1800 – 100 AZN
ELO 1801-2000 – 100 AZN	ELO 1801-2000 – 100 AZN

6.5. Mükafat fondunun məbləği Azərbaycan Respublikasında tətbiq edilən bütün növ

vergilərdən azaddır.

6.6. Bir iştirakçı mükafata layiq bir neçə yer tutarsa, yalnız 1 mükafat (ən yüksək olanını) əldə edə bilər.

6.7. İki və daha çox şahmatçı eyni xal toplayarsa mükafat bölünmür, əlavə göstəricisi üstün olan iştirakçıya verilir.

7. Yerləşmə

7.1. İştirakçılar üçün otel xərcləri aşağıdakı cədvəldəki kimi təklif olunur:

Otel	İki nəfərlik otaq		Tək nəfərlik otaq	
	Səhər yeməyi ilə	3 dəfə yeməklə	Səhər yeməyi ilə	3 dəfə yeməklə
Şamaxı tədris mərkəzi	60 AZN	70 AZN	85 AZN	100 AZN
	(1 nəfər üçün qiymət)	(1 nəfər üçün qiymət)		

- Yerləşmə ilə bağlı əlavə suallarınız olarsa təşkilatçıya müraciət edə bilərsiniz.

8. Apellyasiya

8.1. Baş hakimin qərarlarına qarşı etirazlar Apellyasiya Komissiyasına təqdim edilə bilər. Apellyasiya Komissiyasının üzvlərini seçilməsi və təyin edilməsi Təşkilat Komitəsi tərəfindən həyata keçirilir.

8.2. Etirazlar turun bitməsindən sonra 1 (bir) saat ərzində yalnız yazılı şəkildə və müvafiq rüsumun - 200 (iki yüz) AZN ödənilməsi ilə təqdim edilə bilər.

9. Media

9.1. Festival boyunca yalnız akkreditə olunmuş media nümayəndələrinə fotoçəkiliş edilməsinə icazə verilir.

9.2. İşıq (flash) vasitəsilə fotoçəkiliş yalnız turlar başlanandan sonra ilk 5 (beş) dəqiqə ərzində mümkündür.

10. Viza və miqrasiya

10.1. Elektron vizaları aşağıdakı linkdən asanlıqla əldə etmək olar: https://evisa.gov.az

10.2. E-vizaya uyğun ölkələrin siyahısı https://evisa.gov.az/az countries saytındadır.

10.3. E-vizaya aid olmayan ölkələrin şahmatçıları Azərbaycanın həmin ölkədəki səfirliyi ilə əlaqə saxlamalıdırlar.

10.4. Ehtiyac yaranarsa Təşkilat Komitəsi giriş vizasının alınmasında dəvət məktubu ilə köməklik göstərir.

10.5. Azərbaycan Respublikasının miqrasiya qanunvericiliyinə uyğun olaraq, əcnəbilər Azərbaycan Respublikası ərazisində olduqları halda, yaşadıqları yer üzrə 14 (on dörd) gün müddətində qeydiyyata düşməlidirlər. https://migration.gov.az/az

Əlaqə:
+994 50 214 83 10 Allahverdiyeva Nərmin
Vüqar Həşimov Şahmat Fondu
E-mail: shamakhiopen@chess.az Web: shamakhiopen.chess.az